# Çağdaş qəhrəmanlıq dastanı



**Prezident sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Birinci Qarabağ müharibəsinin cəsur döyüşçüsü – Xocalı girovlarını xilas etmək üçün təslim olan zaman Vətən bayrağını köksünə sıxmış Natiq Qasımovun hünəri dillərdə dastan olmaqdadır. Onun haqqında poetik duyğularını qələmə alan şair Ayaz Arabaçı yazır: "Nəfəsimi dərə-dərə bu əfsanəvi qəhrəman haqqında bir poema yazmağa başladım. Bir az xəyallarıma güvəndim, bir az tarixin solğun vərəqlərinə göz gəzdirdim, bir az da səngərlərin soyuğunu canıma çəkdim. O acı illərdə bizə cəsarət şirinliyi daddıran oğula "Ruhun şad olsun!" – dedim".**

Milli Qəhrəman Natiq Qasımova həsr olunan həmin poemadan bir parçanı "XQ"-nin oxucularına təqdim edirik:

*...Vətənin yaraları ürəyində qövr edən,*
*Yernən əlləşən igid, göynən əlləşən igid.*
*Damarında qeyrəti qan yerinə dövr edən,*
*İyirmi bir yaşında əfsanələşən igid.*

*Döyüşdün yorulmadan hey gündüz də, gecə də,*
*Ləyaqətlə bitirdin həm də son vuruşunu.*
*Bütün dünya mat idi, itirmədin necə də,*
*Düşmənin ortasında öz məğrur duruşunu.*

*Titrəmədi tətikdə bircə gün də barmağın,*
*Dönmədin öz yolundan bu çovğunla, bu qarla.*
*Yeriyirdin inamla başın üstə bayrağın,*
*Babəki xatırladan əzəmətlə, vüqarla.*

*Qəzəbin örtük idi çəkdiyin ağrılara,*
*İyirmi bir yaşından dillərdə dastan igid..*
*Sən öz haqq savaşınla göstərdin yağılara,*
*Göstərdin necə olur, şir igid, aslan igid.*

*Güllələr ac quş kimi qapırdı hər bir "dən"i,*
*Qanına bələyirdi yolları-cığırları.*
*Kilsədə bir batalyon əsgər zənn edib səni,*
*Qorxuya düşmüşdülər erməni dılğırları...*

*Beş gün gecəbəgündüz susmayıb avtomatın,*
*Bilirik danışmısan düşmənlərlə nə tonla.*
*Bilmirik harda bitdi, necə bitdi həyatın,*
*Öyündük o mübarək qəhrəmanlıq fotonla…*

***Ayaz ARABAÇI***

Xalq qəzeti .- 2024.- 4 iyul, (№ 137).- S.10.